# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

## Magistratura təhsil səviyyəsində təhsil alan tələbələr üçün 2020/2021-ci tədris ilinin yaz semestrinin imtahan sesiyasında məsafədən (online) imtahan üçün

## T Ə L İ M A T

Magistratura səviyyəsi üzrə dərslər pandemiya şəraiti ilə əlaqədar olaraq ölkə üzrə xüsusi karantin rejimi tətbiq edildiyinə görə Micrisoft Teams platforması üzərindən cədvəl əsasında distant formada təşkil edilib. İmtahan sesiyasında tələbənin fənlər üzrə yekun imtahan balının formalaşmasında Micrisoft Teams və Whatsapp platformalarından istifadə ediləcək. Magistratura səviyyəsi üzrə yaz imtahan sesiyası 01-22 iyun 2021-ci il tarixlərdə təşkil ediləcək. Tələbənin yekun balı imtahanaqədərki balla imtahan nəticəsinin cəmindən formalaşacaq. İmtahanaqədərki bal tələbənin online dərslərə davamiyyəti və müəllim tərəfindən Microsoft Teams üzərindən keçirilən seminar və sorğulardakı cavabları əsasında müəyyən ediləcək.

1. Tələbənin dərslərə davamiyyət balı Micrisoft Teams platformasında keçirilən məşğələlərdə müəllim tərəfindən qeyd olunmuş saatlar əsasında formalaşır. Tələbənin fənn üzrə dərslərdə iştirak etmədiyi saatların həmin fənnə ayrılmış ümumi saatın hər 10% -nə uyğun 1 bal çıxılır. Bu mərhələdə toplanan maksimal bal 10 baldır.

2. Tələbənin semestr ərzində hər bir fəndən Micrisoft Teams platformasında keçirilən məşğələlərdə gündəlik topladığı ballar cəmlənir və orta bal tapılaraq 4-ə vurulur. Bu mərhələdə toplanan maksimal bal 40 baldır. Beləliklə, tələbə imtahana qədər maksimum 40+10=50 bal toplaya bilər.

3. Tələbənin imtahan balı Whatsapp platformasından istifadə olunaraq müəyyənləşdirilir. Bunun üçün Magistratura şöbəsinin tyutorları tərəfindən WhatsApp platforması üzərindən ixtisaslar və qruplar üzrə "WhatsApp qrupları" yaradılmışdır və tələbələr ixtisaslar üzrə bu qruplara qoşulacaq.

Tələbəyə imtahanda hər bir fəndən 5 sualdan ibarət bilet təqdim olunur. Tərtib olunmuş biletlərin sualları imtahana bir həftə qalmış tələbələrə verilir. Biletin hər bir sualı 0-10 balla qiymətləndirilir. İmtahan yazılı formada keçirilir. Bu mərhələdə toplanan maksimal bal 50

baldır. Tələbə imtahandan keçmək üçün minimum 17 bal toplamalıdır. Beləliklə, tələbə imtahana qədərki balla (50 bal) birlikdə maksimum 100 bal toplaya bilər.

Magistratura səviyyəsi üzrə I kurs tələbələri WhatsApp platforması üzərindən online yazılı imtahanlar zamanı əvvəlcədən aşağıdakı hazırlıqları görməlidirlər:

Ağ vərəqdə (dəftər vərəqi də ola bilər) ixtisasın adını, kursu, imtahan verdiyi fənnin adını, öz adı və soyadını, imtahanın verildiyi tarixi qeyd etməlidir.

**Nümunə**

*Magistratura şöbəsi*

*İxtisas: Tarix fənninin tədrisi metodikası və metodologiyası*

*Kurs: 1*

*Fənn: Azərbaycan tarixinin aktual problemləri*

*Tələbə: Məmmədov Qulu Ramiz oğlu*

*İmtahan tarixi: 15.06.2021*

Tələbə əvvəlcədən hazırladığı vərəqdə sualların cavabını əlyazma formada yazmalıdır. Cavablar yazılan zaman sualların ardıcıl yazılması məcburi deyil. Sadəcə cavabın qarşısında sualın nömrəsini qeyd etmək lazımdır. Misal üçün:

*1-ci sualın cavabı*

.............

*3-cü sualın cavabı*

............

*5-ci sualın cavabı*

.........

Tələbənin yazılı imtahandan əvvəl hər bir fənn üçün yaratdığı vərəq **cavab kartı** adlanır. Bütün məlumatları tələbə diyircəkli qələm (ruçka) ilə yazmalıdır.

İmtahana 2 (iki) saat vaxt verilir. İmtahan üçün tərtib olunmuş bilet imtahanın başlanmasına 5-10 dəqiqə qalmış WhatsApp-da tələbəyə göndəriləcək. Bunun üçün tyutorlar tələbə ilə əlaqə saxlayıb onun telefon nömrəsini (WhatsApp-a qoşulmuş öz nömrəniz və ya ailə üzvlərindən birinin nömrəsi ola bilər) alıb qrupa qoşacaq. WhatsApp mühitindən istifadə sadə və hamı üçün əlçatan olduğundan imtahan prosesi bu mühitdə təşkil olunur.

İmtahana ayrılan iki saatın tamamında tələbə cavab kartının şəkilini çəkib tyutora göndərir. Magistratura şöbəsi tələbənin elektron və yaxud çap edilmiş cavab kartını yoxlamaq

üçün fənn müəlliminə təqdim edir. Növbəti imtahana qədər imtahan qiyməti tələbəyə WhatsApp mühitindən istifadə edərək çatdırılır.

İmtahanlar əvvəlcədən təsdiq edilmiş cədvəl üzrə keçirilir.

**İmtahanlar saat 10:00-da başlayır.**

İmtahanda iştirak etmək məcburidir.

**Qeyd 1.** Tələbə fənn üzrə imtahan suallarını əvvəlcədən araşdırmalıdır. Suallarda yaranacaq elmi və ya texniki səhvlər barədə 30.05.2021-ci il tarixinə qədər WhatsApp qrup rəhbərinə məlumat verilməlidir.

**Qeyd 2.** Məsləhətdir ki, imtahan vermək üçün telefondan (smartfon) istifadəyə üstünlük verin. Çünki bu zaman elektrik enerjisinin kəsilməsi və internetin kəsilməsi kimi problemlər aradan qalxır. İlk öncə telefonun elektrik enerjisi ilə tam dolu olmasından və balansınızda kifayət qədər meqabayt olmasından əmin olun. Eyni zamanda internetdə kəsilmənin qarşısını almaq üçün Wi-fi istifadəsindən qaçmaq və mobil internet paketindən istifadəyə üstünlük vermək tövsiyə olunur. Tələbənin internetlə, elektrik enerjisi ilə bağlı və ya telefonunda (kompüterdə, planşetdə) problemin olması imtahanda iştirak etməmək üçün üzürlü səbəb hesab edilmir. Bu səbəbdən imtahanda iştirak etməyən tələbənin imtahan verilən fəndən imtahan qiyməti akademik borc hesab olunur.

Tələbə imtahan qiymətindən narazı olduqda imtahan qiyməti elan edildiyi gün universitet üzrə yaradılmış apelyasiya komisiyasına müraciət etməlidir. Tələbənin müraciəti internet vasitəsi ilə ***apelyasiya@gdu.edu.az*** elektron ünvanına göndərilməlidir. **İmtahan qiymətini bildiyi gündən sonrakı günlərdə Apelyasiya komissiyasına göndərilən ərizələrə baxılmayacaq!**

Ərizə nümunəsi təlimatın sonuna əlavə edilir.

***İMTAHAN MƏRKƏZİ***

**Nümunə**

*Gəncə Dövlət Universitetinin rektoru*
*prof. Y.Ə.Yusibova*
*Magistratura şöbəsinin Diferensial tənliklər ixtisasının 1-ci qrup magistri Göyüşov Bayandur Osman oğlundan*

***Ə R İ Z Ə***

Hörmətli Yusif müəllim!

15.06.2021-ci il tarixdə "Diferensial tənliklər" fənnindən imtahan vermişəm. İmtahan biletində olan suallara verdiyim cavablar ... balla qiymətləndirilmişdir. Nəticədən narazı olduğum üçün imtahan cavablarımın yenidən yoxlanılmasını xahiş edirəm.

**İmza:** **B.O.Göyüşov**

*Tarix 18.06.2021*